# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## «Ölçmə vasitələrinin dövlət reyestrinin aparılması Qaydaları»nın təsdiq edilməsi barədə

«Ölçmə vasitələrinin dövlət reyestrinin aparılması Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 fevral tarixli 24 nömrəli qərarından irəli gələn vəzifələrin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. Ölçmə vasitələrinin dövlət reyestrinin aparılması Qaydaları təsdiq edilsin.
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

10 fevral 2011-ci il

№ 27

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 10 fevral tarixli 27 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Ölçmə vasitələrinin dövlət reyestrinin aparılması QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 10.2-ci maddəsinə əsasən hazırlanmışdır və dövlət metroloji nəzarətinin şamil edildiyi sahələrdə istismar edilən ölçmə vasitələrinin dövlət reyestrinin aparılması qaydasını müəyyən edir.

1.2. Ölçmə vasitələrinin dövlət reyestri (bundan sonra - Reyestr) Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra - Komitə) tərəfindən tipi təsdiq edilmiş ölçmə vasitələrinin qeydiyyatı üçün nəzərdə tutulmuşdur və ölçmə vasitələrinin sınaqları və tipinin təsdiqi üzrə aparılan işlərin nəticələri haqqındakı rəsmi məlumat mənbəyidir.

1.3. Reyestr aşağıdakı məqsədlər üçün yaradılır;

- Naxçıvan Muxtar Respublikası ərazisində tətbiqinə icazə verilən ölçmə vasitələrinin təsdiq edilmiş tipinin dövlət uçotunun təmin edilməsi;
- dövlət orqanlarının, hüquqi şəxslərin və fərdi sahibkarların ölçmə vasitələrinin tipləri (modifikasiyaları, icraları) haqqında informasiya təminatı;
- mərkəzləşdirilmiş məlumat-axtarış verilənlər bazasının yaradılması.

1.4. Reyestrin aparılmasına ölçmə vasitələrinin tipinin Reyestrə daxil edilməsi, Reyestrdən çıxarılması və Reyestrdə dəyişikliklərin edilməsi daxildir.

1.5. Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

- ölçmə vasitəsinin adı və tipi, modifikasiyaları və icraları, təyinatı və tətbiq sahəsi, əsas texniki xarakteristikaları;
- ölçmə vasitəsinin qeydiyyat nömrəsi;
- beynəlxalq sazişlərə və dövlətlərarası standartlaşdırma qaydalarına uyğun olaraq, sınaqların nəticələrinin tanınması və tipin təsdiqi zamanı digər dövlətin ölçmə vasitələrinin dövlət reyestrindəki qeydiyyat nömrəsi;

- ölçmə vasitəsinin Reyestrə daxil edilmə tarixi;
- ölçmə vasitəsinin istehsalçısının adı və olduğu yer;
- ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında Sertifikatın qeydiyyat nömrəsi və qüvvədə olma müddəti;
- əsasında ölçmə vasitəsinin tipi hazırlanan normativ sənədin, yoxlama metodikasının adı və yoxlamalararası intervalın müddəti;
- ölçmə vasitəsinin tipinin Reyestrə daxil edilməsi və ya oradan çıxarılması, onun Reyestrdə qalma müddətinin dəyişdirilməsi və Reyestr sənədində dəyişikliklər edilməsi haqqında Komitənin qəbul etdiyi qərarın nömrəsi və tarixi (ölçmə vasitələrinin dövlət reyestri kitabının forması əlavə olunur).

## 2. **Ölçmə** vasit**ələ**rinin tipinin Reyestr**ə** daxil edilm**ə**sinin **ə**sasları

2.1. Ölçmə vasitələrinin tipi Komitənin qərarı ilə təsdiq edilir və Reyestrə daxil edilir.

Aşağıdakı hallardan biri ölçmə vasitələrinin tipinin təsdiq edilməsi və Reyestrə daxil edilməsi üçün əsas hesab edilir:

- ölçmə vasitələrinin tipinin təsdiqi məqsədi ilə aparılan dövlət sınaqlarının müsbət nəticələri;
- beynəlxalq sazişlərə və dövlətlərarası standartlaşdırma qaydalarına uyğun olaraq, ölçmə vasitələrinin digər dövlətlərdə aparılmış dövlət sınaqlarının nəticələrinin tanınması və tipinin təsdiqi məqsədi ilə dövlət sınaqları materiallarının ekspertizası.

2.2. Ölçmə vasitələrinin tipinin Reyestrə daxil edilməsi Ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında Sertifikatla təsdiq edilir.

2.3. Dövlət qeydiyyatı Komitənin müvafıq struktur bölməsinə tipin təsdiqi barədə qərarın daxil olduğu gündən başlayaraq, 5 gün müddətində aparılır.

2.4. Ölçmə vasitələrinin tipi Reyestrə 5 (beş) il müddətinə daxil edilir.

Ölçmə vasitələrinin tipinin Reyestrdə qalma müddəti Komitənin qərarına əsasən onların Reyestrə daxil edilməsi üçün müəyyən edilmiş qaydada uzadıla bilər.

2.5. Ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında Sertifıkatın verilməsinə və tipin Reyestrə daxil edilməsinə görə dövlət rüsumu «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

## 3. Reyestrdə dəyişikliklər edilməsi qaydası

3.1. Reyestrdə dəyişikliklər edilməsi aşağıdakı məqsədlərlə həyata keçirilir:

- ölçmə vasitələrinin tipinin Reyestrdə qalma müddətinin uzadılması;
- ölçmə vasitələrini istehsal edən hüquqi şəxsın adının və olduğu yerin dəyişməsi;
- ölçmə vasitələrinin əsas xarakteristikalarının təyinatının və tətbiq sahəsinin dəqiqləşdirilməsi;
-ölçmə vasitələrinin yoxlamalararası intervalının artırılması (azaldılması).

3.2. Reyestrdə dəyişiklik edilməsi Komitənin qərarı əsasında həyata keçirilir.

## 4. **Ölçmə** vasitələrinin tipinin Reyestrdən çıxarılması qaydası

4.1. Aşağıdakı hallarda ölçmə vasitələrinin tipi Reyestrdən çıxarılmalıdır:

- ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında Sertifıkatın qüvvədə olma müddəti qurtardıqda;
- ölçmə vasitələri onlara şamil edilən texniki normativ hüquqi aktların tələblərinə və onlar haqqında Reyestrə daxil edilmiş məlumatlara uyğun gəlmədikdə;
- 5 (beş) ildən artıq müddətdə seriyalı istehsal mənimsənilmədikdə.

4.2. Ölçmə vasitələrinin tipinin Reyestrdən çıxarılması Komitənin qərarı əsasında həyata keçirilir.

4.3. Tipi Reyestrdən çıxarılmış ölçmə vasitələrinin istehsalı, idxalı, satışı və istismarı qadağandır.

Tipi Reyestrdən çıxarılmış ölçmə vasitələrinin yalnız müqayisəli yoxlamadan və ya kalibrləmədən keçdikdən sonra istifadəsinə yol verilir.

4.4. Reyestrdən çıxarılmış ölçmə vasitələrinin tipinin qeydiyyat nömrəsi ölçmə vasitələrinin yeni təsdiq edilmiş tipinə verilmir.

## 5. Reyestrin məlumatları üzrə informasiya xidməti

5.1 Ölçmə vasitələrinin Reyestri həm kağız, həm də elektron daşıyıcılarda aparılır.

5.2. Reyestrdə olan məlumatlar bazasında maraqlı hüquqi və fiziki şəxslərə, o cümlədən xarici ölkələrə elektron qeydiyyat jurnalı əsasında müəyyən edilmiş qaydada informasiya xidməti həyata keçirilir.

5.3. Reyestrin məlumatı Komitənin dövri nəşrlərində və xüsusi informasiya məcmuələrində (göstəricilərində, məlumat kitabçalarında, kataloqlarda) çap olunur və Komitənin saytında yerləşdirilir.

5.4. Komitənin müvafiq struktur bölməsi ölçmə vasitələri haqqında məlumatları hazırlayır və rübdə bir dəfədən az olmayaraq, bu məlumatların mətbuatda dərc edilməsini təşkil edir.

5.5. Komitənin müvafıq struktur bölməsi Reyestrlə bağlı malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın Komitənin saytında yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir.

5.6. Komitənin müvafiq struktur bölməsi Reyestrdəki dəyişikliklər haqqında məlumatların bir aydan gec olmayaraq mətbuatda rəsmi dərc olunmasını təşkil edir.

5.7. Reyestrdən istifadə edən fiziki və hüquqi şəxslərin müraciətlərinə 5 (beş) gün müddətində baxılır.

## 6. Sənədlərin saxlanması qaydası

6.1. Ölçmə vasitələrinin tipinin Reyestrdən çıxarılması barədə sənədlər Azərbaycan Respublikası qanunvericiliyinin müəyyən etdiyi müddət ərzində Reyestrin arxivində saxlanılmalıdır.

6.2. Reyestrin sənədlərinin saxlanması Komitə tərəfındən aparılan sənədlərin saxlanmasının müəyyən edilmiş şəraitinə riayət etməklə və informasiyaya girişin məhdudluğu tələblərini təmin etməklə, arxivin ayrı-ayrı anbarında həyata keçirilir.

«Ölçmə vasitələrinin dövlət reyestrinin aparılması Qaydaları»na əlavə

**Ölçmə** vasit**ələ**rinin d**ö**vl**ə**t reyestri kitab**ını**n forması

| Sıra №-si | Ölçmə vasitə-sinin adı və tipi, modifi-kasiya-ları və icraları, təyinatı və tətbiq sahəsi, əsas texniki xarak-teristi-kaları | Ölçmə vasitə-sının qey-diyyat nömrəsi | Beynəl-xalq Sazişlə-rə və dövlət-lərarası stan-dartlaş-dırma qayda-larına uyğun olaraq, sınaq-ların nəticə-lərinin tanın-ması və tipin təsdiqi zamanı digər dövlətin ölçmə vasitə-lərinin dövlət reyes-trindəki qeydiy-yat nömrəsi | Ölçmə vasitəsinin Reyes-trə daxil edilmə tarixi | Ölçmə vasitə-sinin isteh-salçısı-nın adı və olduğu yer | Ölçmə vasitə-lərinin tipinin təsdiq edilmə-si haqqında Sertifi-ka-tın qeydiyyat nömrəsi və qüvvədə olma müddəti | Əsasında ölçmə vasitə-sinin tipi hazırla-nan norma-tiv sənədin, yoxla-ma metodi-kasının adı və yoxla-malar-arası interva-lın müddəti | Ölçmə vasitə - sinin tipinin Reyes-trə daxil edilmə-si və ya oradan çıxarıl-ması, onun Reyes-trdə qalma müddə-tinin dəyiş-dirilmə-si və Reyestr sənə-dinə dəyişik-liklər edilmə-si haqqın-da Komitə-nin qəbul etdiyi qərarın nömrəsi və tarixi |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |